# Ən böyük tarix kitabını Ulu Öndər özü yazıb

**Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə**



**- Dilarə xanım, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin anım günü qeyd edilir. Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətləri təhlil olunur, yeni məqamlar açıqlanır. Sizin fikirlərinizi bilmək maraqlı olardı...**

- Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun Heydər Əliyev kimi dahi şəxsiyyəti olub. Bu gün biz müstəqil ölkənin vətəndaşı olaraq çox çətin yollardan keçmişik. Bu müstəqilliyin qorunması və möhkəmlənməsi Ümummilli Liderin xidmətləri sayəsində mümkün olub. Heydər Əliyev ölkəmizin müstəqilliyini qorumaqla yanaşı, inkişafı naminə çox mühüm işlər görüb. Ulu öndər Heydər Əliyev müstəqillik illərini həm yaradan, həm möhkəmləndirən, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi. Özündə bütün keyfiyyətləri birləşdirmişdir. Heydər Əliyevin uşaqlıqdan qarşısına qoyduğu məqsədlərə diqqət yetirərkən çox zəngin bir həyat yolu olduğunu görürsən. Azərbaycanın gözəl diyarı Naxçıvanda anadan olan, orada ilk təhsilini alan, sonra Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil alan Heydər Əliyev bütün gələcəyini, ömrünü dövlətinə, xalqına həsr edib. Onun seçimləri çox düzgün olmuşdur. Ona görə ki, pedaqoq insanları sevəndir. Müəllim həm savadı, biliyi, həm də davranışı ilə hər bir insana dəstək göstərməyə hazır olmalıdır. Memar isə yaradıcı insandır. Vətənini, millətini, xalqını canından artıq sevən Ümummilli Lider bu peşələri seçərkən qarşısına məqsəd qoymuşdur. Lakin müharibə başlamışdır. Heydər Əliyev bilirdi ki, Azərbaycan da digər ölkələr kimi təhlükə qarşısındadır. Ona görə də dövlət təhlükəsizliyi orqanlarında işləmişdir. Müharibə zamanı bütün dünyanın diqqətinin Azərbaycana, paytaxt Bakımıza yönəldiyini görəndə özünə çox yaxşı ixtisas seçmişdir-Tarix. Heydər Əliyev Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib. Onunla işləyən bir insan, eyni zamanda, bir tarixçi kimi deyə bilərəm ki, müstəqillik illərində tarixin bir elm kimi çox böyük rolu olub. Hər bir müstəqil ölkənin vətəndaşı öz tarixini dərindən bilməli, bütün fəaliyyətini müstəqilliyin qorunmasına həsr etməlidir. Müstəqillik böyük sərvətdir. Heydər Əliyev həmişə deyirdi ki, mən müstəqillik üçün, öz millətimin azadlığı üçün canımdan da keçməyə hazıram. Keçdiyi həyat yolu bu istəyinin aydın ifadəsidir. Azərbaycan KP MK-nin Birinci katibi, daha sonra Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildiyi dövrlərdə gördüyü işlərə diqqət yetirsək bu məqam aydın şəkildə diqqəti çəkir ki, Heydər Əliyev daim Azərbaycanın müstəqilliyi üçün çalışmışdı. Heydər Əliyev hələ 1969-cu ildə ilk dəfə Azərbaycanda siyasi hakimiyyətə gəlişi zamanı ölkəmizin müstəqilliyini öncədən görürdü və onun bütün siyasəti məhz bu istiqamətə yönəlmişdi. Ölkəmizin iqtisadi qüdrətinin artırılmasını, hərbi hazırlığa böyük önəm verilməsini, bu məqsədlə C.Naxçıvanski adına Hərbi Liseyin yaradılmasını və yerli hərbi kadrların yetişdirilməsi məsələsinə ayrılan diqqəti xüsusi qeyd etmək lazımdır. Ulu Öndərin bütün addımları Azərbaycanın gələcək müstəqilliyinə hesablanmışdır.

**- Hər bir xalqın istiqlal tarixində onun taleyüklü məsələlərini həll edən, xilaskarlıq missiyasını yerinə yetirən dahi şəxsiyyətləri olur. Həm də həmin dahi şəxsiyyətlər xalqı öz arxasınca aparır və bir çox məsələlərdə xalqını qalib xalqa çevirir. Ulu öndər Heydər Əliyevlə uzun müddət işləmiş bir şəxs kimi xatirələrinizi bölüşməyinizi istərdik...**

- Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev çətin anlarda xalqına dayaq oldu, yol göstərdi. O bütün ömrünü Azərbaycana, Azərbaycan xalqına həsr edib. Bütün bunlar gənc nəsil üçün həm dövlətçilik ənənələrini dərk etmək, həm də üzərilərinə düşən məsuliyyəti anlamaq baxımından bir nümunədir. Çox arzu edərdim ki, hər bir Azərbaycan gənci öz həyat yolunu seçərkən Heydər Əliyevin həyat yolunu dərindən öyrənsin. Məsuliyyətlə yanaşsın. Ulu Öndərin torpaq, Vətən sevgisi böyük idi. Azərbaycanlı olması ilə fəxr etməsi gənclərə örnəkdir. Hər bir Azərbaycan gənci azərbaycanlı olması ilə fəxr etməli, hər zaman inkişafa can atmalıdır. Heydər Əliyev bilirdi ki, məhz hərtərəfli inkişaf etmiş gənclər müstəqil Azərbaycanın əsas dayaqları olacaq.

Heydər Əliyev hər bir baxımdan nümunədir. Mən çox xoşbəxtəm ki, bir Azərbaycan vətəndaşı olaraq öz həyat yolumu tarixə həsr etmişəm. Mənim üçün böyük xoşbəxtlik idi ki, belə dahi şəxsiyyətin, siyasətçinin köməkçisi olmuşam. Çalışırdım ki, nəsə köməklik edim. O dövr mənim həyatımda ən parlaq illər oldu. Cənab Prezident məndən tez-tez soruşurdu ki, bu yazıları necə tez-tez çatdırırsınız? Siz niyə yorulmursunuz? Deyirdim, cənab Prezident! Mən belə böyük siyasətçinin qarşısındayam. Heç fikirləşmirəm ki, necə yorula bilərəm.

Mən işimdən zövq alırdım. Canlı mənbə gözümün qarşısında idi - Azərbaycanın bu günü və gələcəyi üçün böyük inkişaf yolu müəyyənləşdirən şəxsiyyət Heydər Əliyev. Onunla işləmək böyük xoşbəxtlik və şərəf idi.

**- Ümummilli lider Heydər Əliyevin dövlətçilik ənənələrinin formalaşmasında rolunu necə dəyərləndirərdiniz?**

- Bizim ən böyük xoşbəxtliyimiz onda idi ki, dərin, zəngin biliyə malik olan Heydər Əliyev bizi dünya ictimaiyyətinə təqdim etdi. Ulu Öndər hər zaman bütün dünyada böyük hörmətlə qarşılanıb. Hər bir azərbaycanlı bunu yüksək qiymətləndirməli, onun qoyduğu yolla getmək üçün əlindən gələni etməlidir. Ulu Öndər böyük məktəb idi. O, Azərbaycanla fəxr edirdi. Hər bir səfərə gedərkən həmin ölkənin tarixini yenidən nəzərdən keçirərək orada öz çıxışlarında, rəsmi qəbullarda o ölkənin rəhbərlərinə bilik verirdi. Onlar heyran olurdular. Hər səfərindən öncə mənə tapşırırdı ki, xəritələri hazırla. Ona lazım olacaq bütün xəritələr çantamda olurdu. Çantanın ağırlığını belə hiss etmirdim. Getdiyi ölkələrdə hansı məqamlardan asılı olmayaraq xəritələr göstərilirdi. Görün, nə qədər ölkəsini sevirdi.

Azərbaycanı neft ölkəsi kimi tanıyırdılar. Azərbaycanın təqdimatını elə aparırdı ki, görüşlərdə iştirak edənlər bildirirdilər ki, biz də azərbaycanlı olmaq istərdik. Öz biliyini, davranışını elə səmimi göstərirdi ki, hamı valeh olurdu. Onun hər bir addımı böyük sevgi idi. Heydər Əliyev xalqın arasında olmağı, onlarla söhbəti sevirdi. Heydər Əliyevin fəaliyyəti bir örnəkdir. O, böyük bir tarixdir. Onun özü böyük bir tarixçi idi. Özünün fəaliyyəti ilə böyük bir tarix kitabını yazıb. Hamı deyir, Ulu Öndərin haqqında kitab yazmaq lazımdır. Mən bunu təqdir edirəm. Amma mən deyərdim ki, ən böyük tarix kitabını özü yazıb. Heydər Əliyev özü həyat kitabını yazıb.

**- Dilarə xanım, ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamçısı, ölkə Prezidenti İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizlə adını tarixə qalib Lider kimi yazdı. Vətən müharibəsində dünyaya səs salan “Dəmir yumruq” nələri özündə ehtiva etdi?**

- Mən o yumruqda xalqımızın birliyini görürəm. O milli birlikdir. Heydər Əliyevin arzusunun reallıqda təsdiqidir. Dünya tarixi Zəfərimizə, dəmir yumruq kimi birliyimizə heyrandır. 44 gündə Azərbaycan bütün dünyaya göstərdi ki, qalib ölkədir. Bu, Heydər Əliyev siyasətinin bəhrəsidir. Xalqını, dövlətini necə böyük məhəbbətlə sevirdi ki, Azərbaycana İlham Əliyev kimi Prezidenti, dövlətini, xalqını sevən Lideri bəxş etdi. Cənab İlham Əliyevin həyata keçirdiyi siyasətə hansı töhfəni verə bilərik, bu barədə hər kəs düşünməlidir. Onda Azərbaycanın gələcəyi hər zaman parlaq, firavan olacaq. Ən əsası müstəqilliyimiz əbədi və dönməz olacaq. Heydər Əliyev bildirirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.

İşğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinin miqyasına diqqət yetirin. Hər birimiz bu işə dəstək olmalıyıq. Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir. Azərbaycan bütün sahələrdə inkişaf edir. Ərazi bütövlüyümüzün təmin olunması, işğala son qoyularaq azad edilmiş torpaqlarımızın cənnətməkana çevrilməsi üçün görülən işlər Heydər Əliyev siyasətinin təntənəsidir.

Yeni Azərbaycan.- 2021.- 15 dekabr.- S.4.